**ETİBAR MUSAYEV**
***Gəncə Dövlət Universitetinin baş müəllimi***

# AZƏRBAYCANIN NEFT STRATEGİYASININ İSTİQAMƏTLƏRİ VƏ PERESPEKTİVLƏRİ

1991-ci ildə müstəqillik qazanan Azərbaycan digər sərvətləri kimi, neftinin də şəriksiz sahibi olub. 1994-cü ildə bir sıra aparıcı dünya ölkələrinin neft şirkətləri ilə «Əsrin müqaviləsi» kimi tarixə düşən müqavilələr imzalamaqla Azərbaycan neft istehsalı sahəsində yeni mərhələyə qədəm qoyub.

İndiyədək dünyanın 15-ə qədər ölkəsini təmsil edən 30-dan çox iri və aparıcı neft şirkəti ilə 21 saziş imzalanıb. Sazişlərdən 16-sı dənizdə, 5-i isə quruda neft hasilatını əhatə edir. Həmin müqavilələr üzrə xarici şirkətlər yaxın gələcəkdə Xəzərin Azərbaycana məxsus sektorunda neft çıxarılmasına 60 milyard dollar investisiya qoymaq öhdəliyi götürüblər. Artıq son səkkiz ildə 3,5 milyard dollardan çox xarici sərmayə neft sektorunda kəşfiyyat, hasilat və digər işlərə sərf olunub.

Bu istiqamətdə başlanan işlərin ilkin nəticəsi kimi 2002-ci ildə ölkənin neft hasilatı 15,3 milyon ton olub ki, bunun da 8,9 milyon tonu Azərbaycan Dövlət Neft Şirkətinin, 6,4 milyon tonu isə «Əsrin müqaviləsi» çərçivəsində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin payına düşür. Xəzərin Azərbaycana aid sektorunda bu günədək 231 perspektiv yataqda kəşfiyyat işləri aparılıb. Onlardan 38,1 faizi quruda, 61,9 faizi dənizdə yerləşir. Bu günədək Azərbaycanda 69 yataq aşkar olunub ki, onların da 42-si quruda, 27-si dənizdədir.

SSRİ dağıldıqdan sonra güclü kapitala ehtiyacı olan Azərbaycan iqtisadiyyatına sərmayələr qoyulması üçün əlverişli şərait yaranmışdır. 1994-cü ildən sonra ölkədə yaranmış siyasi sabitlik və əlverişli siyasi iqlim, xarici kapitalın Azərbaycan iqtisadiyyatına yönəlməsinə şərait yaratdı. Xarici sərmayə, əsasən neft sektoruna yönəldildi. 1994 – 2000-ci illər arasında xarici sərmayələrin 64%-i neft sektoruna yönəldilmişdi.

Ölkə iqtisadiyyatında yaranmış problemləri həll etmək üçün böyük həcmdə investisiyaların cəlb olunmasında, ölkədə iqtisadi islahatların aparılmasında, iqtisadi sabitliyin təmin olunmasında neft strategiyasının rolu çox böyükdür. Bağlanmış neft müqavilələrinin Azərbaycan iqtisadiyyatı üçün maliyyə mənbəyi olması ilə bərabər, müstəqillik əldə etdiyimizdən 1994-cü ilin sentyabrına qədərki dövrdə böyük sarsıntılara məruz qalmış, Ermənistanla aparılan müharibədəki uğursuzluqlara düçar olmuş, 20%-ə yaxın torpaq itirmiş, xeyli şəhid vermiş və çoxlu qaçqını olan xalq üçün böyük mənəvi əhəmiyyəti vardır. Elə buna görə də, ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri də, sosial-iqtisadi strategiyadır. Bu strategiyanın həyata keçirilməsi sayəsində ölkənin sosial və iqtisadi həyatının bütün sahələrində böyük nailiyyətlər əldə edildi. Ölkəyə qoyulan sərmayələrin həcmi artmaqla Ümumi Daxili Məhsulun həcmi artmağa başladı. Ümumi Daxili Məhsulun real artımı 40%-dən yuxarı olmuşdur ki, bunun nəticəsində əhalinin həyat səviyyəsi 2,5 dəfə artmış (1:səh.47), manatın infilyasiyasının qarşısı demək olar ki, alınmışdır, manatın məzənnəsi sabitləşmişdi və ölkə iqtisadiyyatının bütün sahələrinə 8 milyard ABŞ dolları həcmində xarici investisiyalar cəlb edilmişdi.(2:səh.352) Məlum olduğu kimi, respublikanın ona məxsus olan ərazilərindəki neft yataqlarının işlənməsi və istismarı barədə xarici neft şir-

kətləri ilə bağladığı müqavilələrinin həyata keçirilməsi neft hasilatının sürətlə artmasına səbəb olmuşdur. Hasil edilən neftin respublikanın özündə emal edilməsi, xam neftin ixracına deyil, neft məhsullarının ixracına üstünlük verilməsi ölkənin neftdən əldə etdiyi qazancın səviyyəsinin xeyli yüksəldirilməsinə səbəb oldu. Dövlət bu istiqamətdə mərhələlərlə proqramlar həyata keçirməklə gələcəkdə xam məhsul ixracatından hazır məhsul ixracatına keçməyi nəzərdə tutmaqla dövlət gəlirlərini artırdı ki, bu da ölkənin iqtisadi sosial inkişafını təmin etmək üçün perspektivli siyasətdir. İlham Əliyevin dediyi kimi, «Xəzər neftinin satışından əldə ediləcək qazanc boş şeylərə deyil, gələcək nəsillər üçün təzə şəhərlərin, şüşə kimi hamar yolların, nəhəng fabrik və zavodların inşasına sərf olunacaq. Bu gün yeni iş yerləri, infrastrukturlar yaratmalıyıq ki, gələcək nəsillər dünya bazarında neftin qiymətindən asılı olmasınlar. Çünki, neft bizim üçün məqsəd deyil, güclü iqtisadiyyat yaratmaq üçün vasitədir»(7:səh.235). Bakı – Tbilisi – Ceyhan neft ixrac boru kəmərinin inşası hər şeydən əvvəl, neft və qaz avadanlıqları istehsal edən yeni müəssisələrin və sənaye yönümlü digər obyektlərin yaradılmasına yardım edəcək ki, bu da ixtisaslı kadrların və mütəxəssislərin yeni iş yerləri ilə təminatına şərait yaradacaq. Bu da Azərbaycanda işsizlik problemlərinin həll olunmasına təkan verəcək. Bundan əlavə Azərbaycan neft və qaz sənayesi üçün lazım olan avadanlıqlar istehsal edən bir ölkə olmaqla dünya iqtisadiyyatında bu sahəyə olan tələbatı qismən də olsa ödəmək payını aldı, beynəlxalq iqisadi əməkdaşlığı daha da möhkəmləndirdi.

Azərbaycan neft müqavilələri bağladıqdan sonra xarici dövlətlərlə hərtərəfli əməkdaşlıq genişləndi. Avropa İttifaqı ilə əməkdaşlıq getdikcə artmağa və inkişaf etməyə başladı. 1994-cü il sentyabrın 20-dən sonra Avropa İttifaqı ilə ümumi ticarət dövriyyəsi daim artmaqdadır.

Azərbaycan Avropa İttifaqının Qafqazda ən böyük ticarət tərəfdaşıdır və bu ticarətin ən əsas məhsullarını, strateji xammal olan neft, qaz və pambıq təşkil edir. Avropa İttifaqının köməkliyi ilə hazırlanmış və 1998-ci ilin sentyabr ayında Bakıda keçirilmiş zirvə toplantısı zamanı imzalanmış «Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin həyata keçirilməsi vasitəsi ilə TRASEKA ticarət yolunun inkişafı Azərbaycanın gələcək iqtisadi artımını təmin edəcəkdir.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması hal-hazırda Azərbaycan hökumətinin bərabərhüquqlu şərtlər əsasında dünya ticarətində iştirak etmək niyyətini nümayiş etdirən mühüm addımlardandır.

TACİS energetika sahəsinin Azərbaycan iqtisadiyyatında vacibliyini etiraf edir. Bu Mərkəzi Asiyada və həmçinin Xəzər dənizində yerləşən yataqlara əsaslanan milli sənayemizin, neft məhsullarının nəql edilməsi üçün Azərbaycanın strateji mövqedə yerləşməsində özünü göstərir.

Avropa İttifaqının yeritdiyi regional İNOQEYT proqramı Azərbaycana tranzit dövlət rolunda yardım göstərməsi məqsədi daşıyır.

Mərkəzi Asiya və Qafqaz dövlətlərinin enerji ehtiyyatlarının müvəffəqiyyətli inkişafı, enerji sektoruna aid olan bölgədən keçən ticarət axımından Azərbaycanın bəhrələnməsinin təmin olunması üçün çox vacibdir. Müasir dövrdə gedən Qloballaşma prosesi də Azərbaycanın diqqət mərkəzindədir. Azərbaycan tədricən qloballaşmaya uyğunlaşa bilir, öz inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən nisbətən asan və sürətlə hərəkət edə bilir. Siyasi və iqtisadi qərarları qəbul edən zaman hər hansı bir neqativ hala yol verilərsə bu zaman qlobal-

laşma dalğası bizi batırar və ya bizdən yan keçər. Nəticədə bu Azərbaycan dövləti üçün faciəli olar. Azərbaycanı bir neçə onillik geridə qalmaq deyil, ümumdünya tərəqqisindən kənarda qalmaq gözləyər.

Praktik planda bu, siyasi müstəqilliyin və milli simanın itirilməsi təhlükəsi ilə müşayiət olunan ilbəil dərinləşən tənəzzül deməkdir. Axı dünya bazarına daxil olmaq bu və ya başqa ölkəyə həmişə mənfəət gətirmir. Bir çox ölkələrin təcrübəsi təsdiqləyir ki, yalnız təbii ehtiyyatların ixracına arxalananlar tez bir zamanda yataqların tükənməsi, milli iqtisadiyyatın dünya birjalarındakı qiymətlərin enib-qalxmasından asılılığı ilə qarşılaşıb. Bu ölkələrdə əksər əhali yoxsullaşdığı halda, əhəmiyyətsiz dərəcədə azyaşlı hakim təbəqənin zənginləşməsi səbəbindən sosial gərginliyin artması müşahidə olunur. Büdcəsi neft gəlirləri hesabına əsasən formalaşan Azərbaycan neft və qazın əsas istehlakçıları olan Qərb ölkələrinin XXI əsrin ortalarında enerji təminatının prinsipial yeni üsul və metodlarına keçəcəyi haqqındakı proqnozlara etinasız yanaşmamalıdır. Dünya ticarətinə qovuşmaq inkişaf edən bütün ölkələr üçün əsas istiqamətdir. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq bu yolda ən mühüm məqamdır. Müasir dövrdə himayəçilik siyasətinin perspektivsizliyi ciddi mütəxəssislərdə azca da şübhə doğurmur. Harvard Universitetinin iqtisadçıları Cefri Saks, Endrü Uorner aşkarlayıblar ki, 1970 – 1990-cı illərdə daha açıq sistemli inkişaf edən ölkələr qrupuna iqtisadi artım orta hesabla 4,5%, qapalı ölkələrdə isə 1%-dən də az olub. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatına görə, himayəçiliyə bel bağlayanlara nisbətən dünya ticarəti üçün açıq olan ölkələr iki dəfə çox artım göstəricisinə nail olub. Amerika iqtisadçıları Ceyms Qvartni və Rober Lason geniş tədqiqat apararaq, dünyanın bütün ölkələrini iqtisadi azadlıq göstəricisi üzrə təsnif ediblər. Orta gömrük rüsumları, ticarətdən vergilər, qeyri tarif maneələri və başqa himayəçilik məhdudiyyətləri ən sonda nəzərə alınıb. Tərtib olunan siyahı Ümumi Daxili Məhsul (ÜDM) göstəriciləriylə müqayisə olunub və belə bir ilkin fərziyyə öz təsdiqini tapıb ki, iqtisadiyyatda açıqlıq nə qədər çoxdursa onun səmərəliliyi və əhalinin adambaşına düşən gəliri də bir o qədər yüksəkdir.(3:səh.18)

Ancaq bizə Qırğızıstan və Gürcüstan kimi ÜTT-ə üzv olmağa tələskənlik heç də lazım deyildir. Çünki, adı çəkilən həmin postsovet respublikalarından fərqli olaraq Azərbaycan ixracatının 90%-i neft və neft məhsullarından ibarətdir. Bunların isə bazarı və qiymətləri ÜTT qaydaları ilə təyin olunmur. Beləliklə, bu gün həmin təşkilata daxil olmağımızla ixracatımızın həmçinin artımı və diverifikasiyası üçün bir şey udmuruq. Ancaq ÜTT qaydalarına uyğun olaraq, daxili bazarı xaricilərə geniş açsaq xarici məhsul istehsalçıları ilə hələ ki, rəqabət aparmağa qadir olmayan və zorla ayaq üstə duran sənayemizi, kənd təsərrüfatımızı tamamilə məhv edərik.

Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının prezidenti H.Əliyev ölkənin iqtisadi inkişafını təmin etmək üçün ardıcıl olaraq proqramların həyata keçirilməsi üçün sərəncamlar vermişdir. Xarici ölkələrin sərmayəçiləri ilə görüşmüş və razılaşmalar əldə etmişdir. H. Əliyev 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» imzalanan zaman demişdir:

«Biz bu müqaviləni imzalamaqla xarici investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi bir daha nümayiş etdiri-

rik. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin iqtisadi əməkdaşlığın və ümumiyyətlə bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik».(4:səh.5)

Azərbaycan keçmiş SSRİ respublikaları arasında həm böyük iqtisadi potensiala, həm də iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitə malik olan ölkədir. Odur ki, Azərbaycanın inkişafına yönəldilən xarici sərmayələr də ilbəil artmaqdadır. Azərbaycan Mikromaliyyələşdirmə Bankının rəhbəri Tomas Endelhardtın sözləri bunu bir daha təsdiqləyir:

«Biz Azərbaycanın daxilində və xaricində baş verən prosesləri ciddi analiz etdikdən sonra buraya gəlmişik. Bu gün sizin respublikanızın (Azərbaycan Respublikası – red.) rəhbərliyinin (H.Əliyev – red.) yeritdiyi dərindən düşünülmüş, ağıllı siyasət bizə buraya qorxmadan, çəkinmədən investisiya yatırmağa şərait yaradır. Həm ölkə daxilindəki ictimai-siyasi sabitlik həm də yeridilən sülhsevər xarici siyasət bizim səmərəli fəaliyyətimiz üçün mühüm stimuldur».(5:səh.6)

Ölkə daxilində iqtisadi inkişaf əldə olunduqca xarici sərmayələrə bir o qədər də əhəmiyyət verilmir. Çünki, daxili gəlir hesabına daxili investisiya təmin edilir. Bu da ölkə iqtisadiyyatının xarici kapitaldan asılılığını tədricən aradan götürmək imkanı verir. Məlumdur ki, iqtisadiyyatın inkişafında investisiya qoyuluşu başlıca rol oynayır. Ona görə də, dövlət səviyyəsində xarici kapitalın cəlb edilməsi üçün lazım olan bütün tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, BMT-nin iqtisadi komissiyasının Cenevrədə nəşr olunan icmalında MDB ölkələri arasında yalnız Azərbaycan və Qazaxıstanda iqtisadi inkişafın müşahidə edildiyi göstərilib. İcmalda əsas səbəb kimi həmin ölkələrin iqtisadiyyatına xarici investisiyaların qoyulmasına münbit şərait yaradılması göstərilir.

Azərbaycan iqtisadiyyatı ilbəil inkişaf edir ki, bu da 1994-cü il sentyabrın 20-də bağlanmış «Əsrin Müqaviləsi» hesabına olmuşdur.

İ. Əliyevin Vaşinqtona işgüzar səfəri zamanı ABŞ - Azərbaycan Ticarət Palatası ilə 2002-ci il oktyabrın 23-də «Uiliard İnterkontenental» mehmanxanasında görüşdə qeyd etmişdir:

«Biz ölkəmizdə xarici şirkətlər üçün yaxşı sərmayə mühiti yarada bildik. Şirkətlər də öz böyük sərmayələrini gətirdilər və Azərbaycana yatırdılar. Artıq Azərbaycana 6 milyard dollar sərmayə yatırılıb və bu ölkəmizdə iqtisadi vəziyyəti xeyli yaxşılaşdırıbdır.Son altı ildə Azərbaycanda ümumi daxili məhsul 64 faiz artmışdır. Bu da ildə 10 faizdən artıq edir». (6:səh.2)

«Əsrin müqaviləsi»ndən sonra ölkəyə sərmayədarlar axışmağa başladı ki, bu da ölkə iqtisadiyyatının inkişafında təməl rolu oynadı.

Azərbaycanda sosial-iqtisadi sahələrin inkişaf etdirilməsində bu müqavilələrin rolu olduqca böyükdür. Respublikanın iqtisadiyyatında yaranmış problemlərin həlli ilk növbədə böyük məbləğdə investisiyaların cəlb edilməsini, ölkədə iqtisadi islahatların sürətlə aparılmasını, müəyyən iqtisadi sabitliyin bərqərar olunmasını tələb edirdi. Bu baxımdan xüsusi bir neft strategiyasının olmasının rolu çox böyükdür. Xarici neft şirkətləri ilə bağlanmış müqavilələrin Azərbaycan iqtisadiyyatı üçün maliyyə mənbəyi olması ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyətə malikdir.

Neft sənayesində həyata keçirilən iqtisadi strategiya nəticəsində ölkənin valyuta ehtiyyatları artırıldı, xam neftdən gələn gəlir hesabına dövlət neft fondu

yarandı. Neftin satışından toplanan valyuta vəsaitlərinin iqtsadiyyatın qeyri-neft sektorunun inkişafına yönəldildi, gələn gəlirin ölkənin sosial iqtisadi sahələrinin inkişafına yönəldildi, fövqəladə hadisələr zamanı tələbatın ödənilməsi üçün maliyyə mənbəyi yarandı.

Neft strategiyasının həyata keçirilməsi, sosial-iqtisadi inkişafın ümumi istiqamətlərini müəyyən etdi. Bu strategiya böyük elmi, texniki, iqtisadi-sosial problemləri vəhdət halında həll etməyə imkan verən məqsədli kompleks proqramların hazırlanması və həyata keçirilməsi üçün münbit şərait yaratdı. Neft strategiyası ölkədə istehsalın artmasını və sosial-ictimai həyatın inkişafında əlverişli dönüş yaratmaqla, ölkənin hərtərəfli inkişafının təminatçısıdır Azərbaycan xarici şirkətlərlə əməkdaşlıq etdikcə, həm neft sənayesinin, həm də neftlə bağlı olmayan digər sahələrin inkişafına təkan verdi, əhalinin gələcək firavan həyatının təməli qoyuldu. Lakin etiraf etmək lazımdır ki, neft nə vaxtsa sona çatacaq. Bəs onda Azərbaycan iqtisadiyyatı hansı vəziyyətdə olacaq? Onda gələcək nəsillər necə olacaq? sualları indi hamımızı düşündürür. Odur ki, ölkə iqtisadiyyatını neftə bağlayıb, bir tərəfli iqtisadi inkişafı təmin etmək gələcək üçün təhlükəli olar. Elə bu baxımdan dövlət qeyri-neft sektorlarının inkişafı üçün proqramlar həyata keçirir.

Azərbaycan Respublikasının prezidenti İ. Əliyev ABŞ-a səfəri zamanı Los-Anceles şəhərində keçirilmiş seminarda qeyd etmişdir:

«... tez gec 30 – 40 ildən sonra Azərbaycanın neft ehtiyyatları tükənə bilər. Azərbaycan belə bir problemlə əvvəllər də üzləşmişdi. Gələcək nəsillər haqqında indidən düşünmək lazımdır. Biz onların həyatının təhlükəsizliyini indidən təmin etməliyik. Gələcək nəsillər yalnız neft sənayesindən, neftin qiymətlərinin dəyişə bilməsi ehtimalından asılı olmamalıdır. Bu mənada biz özümüz öz sərmayələrimiz haqqında düşünməliyik. Biz neft kimyası, kənd təsərrüfatı və digər sahələrə investisiyalar qoyulmasına da xüsusi əhəmiyyət veririk.» (7:səh.235)

Bütün bu göstərilənlər ölkədə qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan H.Əliyevin «açıq qapı» siyasətinin məntiqi və əməli nəticəsidir. 1994-cü il sentyabrın 20-də bağlanmış ilkin neft müqaviləsindən iqtisadi cəhətdən Respublika aşağıdakıları əldə etdi:

1) Layihənin həyata keçirilməsi Azərbaycan neftinə dünya bazarına çaxmaq imkanı verdi, bu da öz növbəsində daha əlverişli şərtlərə və artıq sazlanmış mexanizm ilə başqa perspektiv sahələri inkişaf etdirmək üçün zəmin yaratdı.

2) Beynəlxalq investisiya və kredit təşkilatlarının gözündə Azərbaycan getgedə daha sabit vəziyyət aldı ki, bu da respublikaya strateji layihələrin həyata keçirilməsi yolunda imtiyazlı vəziyyətlər verdi.

3)Neft ilə sıx əlaqədə olan sahələrə daha geniş kapital qoyuluşu imkanı yarandı.

4)Respublika valyuta ehtiyyatları yaradıb, özünün investisiya siyasətini həyata keçirə bildi.

5)Azərbaycanın dünya iqtisadi birliyinə inteqrasiyası prosesi sürətləndi.

6)Ölkənin texniki inkişafının səviyyəsi yüksəldi.

7)Yeni iş yerlərinin açılması üçün real şərait yarandı ki, bu da sosial-iqtisadi vəziyyəti yaxşılaşdırdı, işsizliyin aradan qaldırılmasına təkan verdi və xalqın yaşayış səviyyəsinin yüksəldilməsinə şərait yaratdı.

8)Mədəni və abadlıq işlərinin həyata keçirilməsinə imkanlar açdı. Azərbaycan iqtisadiyyatının bütün sahələrindəki canlanmanın səbəbkarı «Əsrin müqavi-

ləsi»dir ki, bu da xarici şirkətlərin Azərbaycanla yaxından tanış olmasına və ölkənin potensialının üzə çıxarılmasına şərait yaratdı. Neft müqavilələrinin bağlanması ölkədə iqtisadi islahatların uğurla həyata keçirilməsinə imkanlar açdı.

Azərbaycan hökumətinin iqtisadi strategiyasının əsas istiqamətlərindən biri dünya iqtisadiyyatına inteqrasiya və Azərbaycanın digər ölkələrlə əməkdaşlığıdır. Bu da ölkə prezidenti Heydər Əliyevin apardığı iqtisadi siyasətin məntiqi nəticəsidir.

Neft strategiyasının həyata keçirilməsi nəticəsində bir sıra mühüm siyasi əhəmiyyətə malik nailiyyətlər əldə edildi.

1.Respublika qısa bir vaxtda dünya miqyasında tanındı.
2.Ermənistanın və Erməni lobbisinin apardığı bədnam təbliğata qarşı güclü müqavimət göstərilməsi təşkil edildi.
3.Müstəqil bir dövlət kimi Azərbaycan beynəlxalq sistemə inteqrasiya etdiö
4.Yeni siyasi və strateji müttəfiqlər əldə etdi.
5.Əlverişli investisiya şəraiti olan ölkə kimi dünyada nüfuzu artdı.
6.Ölkədə ictimai və siyasi sabitlik təmin olundu və qorunub saxlanıldı.
7.Regionda Azərbaycan siyasi çəkisi artmaqda olan bir dövlətə çevrildi.

«Əsrin müqaviləsi»ndən sonra Azərbaycan bir sıra beynəlxalq siyasi təşkilatların üzvü oldu. Azərbaycanda demokratiya bərqərar oldu və dünya təcrübəsinə əsaslanan yeni dövlətçilik sistemi təsis edildi.

Xarici iqtisadi siyasətin əsas prinsiplərinin və xarici iqtisadi əlaqələrin inkişafının milli iqtisadi maraqların göstərilməsinə təminat verən dövlət proqramı əsasında həyata keçirilir. Bu proqramda bir tərəfdən xarici investisiyaların cəlb edilməsi, onların Azərbaycan Respublikasının ərazisində ümumdövlət siyasətinə uyğun yerləşdirilməsi tələb olunursa, digər tərəfdən respublikanın ixracat potensialının inkişaf etdirilməsi, milli ixracatçıların əlaqələndirilməsi və onların maraqlarının müdafiə olunması ön plana çəkilir.

Azərbaycanda müvəffəqiyyətlə həyata keçirilən iqtisadi islahatlar sistemində ölkəmizin və hətta bütün dünyanın tarixi sərvəti olan neft-qaz sənayesinin inkişafına dair ağıllı sosial-iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının dirçəldilməsinin barometri kimi qiymətləndirilməlidir

«Əsrin müqaviləsi» adı ilə indii bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin neft strategiyasının uğurları ilk növbədə Azərbaycanın beynəlxalq aləmə həm siyasi, həm də iqtisadi inteqrasiya etməsinə və dünyada xüsusi bir çəkisi olan dövlətə çevrilməsinə gətirib çıxartdı.

Azərbaycan əlverişli coğrafi məkanda olduğundan və buranın karbohidrogen ehtiyyatları ilə zənginliyi beynəlxalq neft şirkətlərinin maraqlarına tam cavab verə bilməsi ilə, dünya enerji böhranını aradan qaldırmaq siyasətini həyata keçirməyə çalışan dövlətlərin diqqət mərkəzində idi.

Azərbaycanın Asiya ilə Avropa, xüsusilə də Qərblə körpü rolunu oynaması onun beynəlxalq aləmdə nüfuzunun artırmasına imkan verir. Belə ki, iri neft şirkətlərinin yeni müstəqillik əldə etmiş Orta Asiya türk dövlətlərinin karbohidrogen ehtiyyatlarını birgə işləməklə, dünya bazarına çıxarmaq üçün ən əlverişli yo-

lun məhz Azərbaycan olmasını görür və ilk növbədə Azərbaycanla hərtərəfli əlaqələrin qurulmasına çalışırdılar.

İri neft şirkətləri Azərbaycanla səmərəli müqavilələr bağlamaqla, Azərbaycanın neftini dünya bazarına çıxaracaq və gələcəkdə baş verə biləcək enerji böhranını aradan qaldırmaq üçün Azərbaycan neftindən istifadə etməyi diqqət mərkəzinə çəkmişdilər. Sözügedən neft şirkətləri təkcə Azərbaycan nefti yox, həmçinin dünyada olan karbohidrogen ehtiyyatlarının 7%-ə(6) qədərinə malik olan Xəzər bölgəsinin ehtiyyatlarını da qarşılıqlı istismar etməyi planlaşdırmışdılar.

### ƏDƏBİYYAT

1.O.N. Aras «Azerbaycan Hazar ekonomisi və stratejisi». Dergi yayınları. İstanbul 2001.
2.Azerbaycan international Maqazine. Summer-1995.
3.Azərbaycan-Böyük Britaniya,Əməkdaşlıq və tərəfdaşlıq (1991-2001) Bakı 2001.
4.Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabat 1998. BMT-nin inkişaf proqramı. Bakı 1998.
5.H.Əliyev «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında». Bakı 2001.
6.Ayna qəzeti№ 9, 2 mart 1996, səh. 31
7.«Xalq» qəzeti,(1997-2003-cü illər)
8.Məmməd Əlizadə «Tarixə yaddaş ömür» Bakı 2002.
9.H.Əliyev «Dünya siyasətində Azərbaycan nefti», Bakı 1997.
10.Ф.Алиев «Контракт века: 5 лет спустя», Consulting & Business S 9-1999.

**ЭТИБАР МУСАЕВ**
***Преподаватель кафедры Общей истории Гянджинского Государственного Университета***

### НАПРАВЛЕНИЯ И ПЕРСПЕКТИВЫ СТРАТЕГИИ НЕФТИ АЗЕРБАЙДЖАНА

В статье освещены перспективы нефти Азербайджана и застойный период в стратегии нефти Азербайджана в начале 90-х годов XX века. А также проанализирована подготовка стратегии нефти Азербайджана.

**ETIBAR MUSAYEV**
***The teacher of General Histoy Ganja State University***

### DIRECTIONS AND PROSPECTS OF STRATEGY OF OIL OF AZERBAIJAN

In article prospects of oil of Azerbaijan and a dead season in strategy of oil of Azerbaijan in the early nineties of the XX-th century are shined. And also preparation of strategy of oil of Azerbaijan is analysed.

***Rəyçilər: t.e.d.O.Sultanov, t.e.d.R.C.Süleymanov.***
***ADPU-nun «Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası» kafedrasının 19 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11).***